https://doi.org/10.59849/3006-1342.2024.2.24
UOT 94 (479.24)

*İ.A.Əsədzadə*
*AMEA Gəncə Bölməsi*
*Gəncə şəhəri, Heydər Əliyev prospekti, 419.*
*E-mail: ilahe.esedzade@gmail.com*
*https://orcid.org/0009-0007-1288-3719*

# QARABAĞIN QƏDİM ALBAN MƏDƏNİYYƏTİNİN ERMƏNİLƏŞDİRİLMƏSİNƏ CƏHD

*Məqalədə Qafqaz mədəniyyətləri içərisində özünəməxsus yer tutan qədim Alban dövlətinin mədəni irsindən və Qarabağ bölgəsinə məxsus mürəkkəb koloriti, təkrarolunmaz üslubu ilə həmişə maraq doğuran bu mədəniyyətin əsrlər boyunca ermənilәşdirilməsinə cəhd olunmasından bəhs olunur. Ermənilər aborigen albanları süni şəkildə erməniləşdirməyə çalışmış, dini cəhətdən yaxın, öz mentalitetlərinə uyğun saydıqları xristianlıq dövrü memarlıq abidələrini qriqoyarlanlaşdıraraq bu tipli abidələrə daha çox sahib çıxmaq istəmişlər. Keçmiş əsgər Ovanes Apresyanın da xatirələrində bəhs etdiyi kimi: "Əslində bu torpaq (Qarabağ) türklərə aiddir və ermənilər bura gəlmədirlər. Biz-ermənilər say baxımından bizdən üstün olan müsəlman türklər arasında xristian azlıq kimi yaşayırdıq". Dövrümüzədək gəlib çatmış, qədim alban-türk memarlığının şah əsərləri olan, Qarabağ ərazisindəki XIII əsrə aid Kəlbəcərdə yerləşən I Xotavəng, Xocavənd rayonun Sos kəndində IV əsrdə inşa edilən Amaras, müqəddəs Yelisey məbəd kompleksinə (V-XIV əsrlər) də işğal dövründə ermənilər tərəfindən böyük zərər vurulmuş, abidələrə erməni vandalizmi tətbiq olunmuşdur.*

*Açar sözlər:* Alban-türk mədəniyyəti, Qarabağ, erməni vəhşiliyi, erməniləşdirilmə, vandalizm

## *Giriş*

Əsrlər boyu Azərbaycanda müxtəlif etnik qruplar və xalqlar bir-biri ilə dinc, yanaşı yaşamış, heç vaxt milli dini zəmində problemlərlə üzləşməmişdir. Multikulturalizm dəyərlərini adət-ənənəsinə çevirən Azərbaycanda hər bir millətin mədəniyyətinə, adət-ənənələrinə hörmətlə yanaşılaraq milli mədəniyyət nümunələri mühafizə edilib saxlanılmışdır.

Tarixin bütün dövrlərində Azərbaycan siyasi baxımdan Cənubi Qafqazın ən böyük və nüfuzlu dövləti olmuş, Qafqaz mədəniyyətləri içərisində özünəməxsus yer tutan Qədim Alban dövlətinin mədəni irsi Azərbaycanda qorunub saxlanılmışdır. Alban memarlıq sənəti mürəkkəb koloriti, texnikası, təkrarolunmaz gözəlliyi və üslubu ilə həmişə maraq doğurmuş və seçilmişdir.

Məhz bu səbəbdən də alban memarlığı bir çox xalqların diqqətini çəkmiş və Qafqaz xalqlarının mədəniyyətinin inkişafına təsir etmişdir. Lakin XIX əsrin əvvəllərində Çar Rusiyası tərəfindən Azərbaycana köçürülən ermənilər Cənubi Qafqazda yaşayan digər millətlərdən fərqli olaraq həmişə yerli xalqlara problem yaratmaqla əvvəlcə yerləşdikləri ərazilərdə alban-xristian abidələrini məhv etməyə çalışmış, sonradan bunun fayda verməyəcəyini başa düşərək bu abidələri özününküləşdirməyə təşəbbüs göstərmişdir. [10, s.70].

## 1. Alban-türk mədəniyyətinin izləri.

Cənubi Qafqazda ermənilər tərəfindən mənimsənilməyə ən çox məruz qalan alban abidələri Qarabağ bölgəsində yerləşən xristianlığa qədərki, həmçinin xristianlıq dövrü

memarlıq abidələridir. Ermənilər aborigen albanları süni şəkildə qriqoryanlaşdırmış, vaxtı ilə sığındıqları Azərbaycan torpaqlarını isə "Hay ölkəsi" – "Şərqi Ermənistan" adlandırmışlar [5, s. 24].

Tarixən məlumdur ki, Albaniyanın Kür çayından cənubdakı ərazisi dörd vilayətə - Arsax, Uti, Paytakaran və Sünik vilayətlərinə bölünürdü [6, s. 22]. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, "Arsax" adının və ərazisinin ermənilərə, yaxud haylara aidiyyəti haqqında hər hansı tarixi fakta və sübuta rast gəlinməyib. Bütövlükdə Qarabağın və bir çox mənbələrdə "Arsax" adlanan dağlıq hissəsinin köklü əhalisinin türkdilli – qarqarlar, hunlar, qoroslar, peçeneqlər, qıpçaqlar və xəzərlər olması haqqında kifayət qədər faktlar mövcuddur. Eramızın I minilliyinə aid mənbələrdə Kürdən cənubdakı ərazidə yalnız alban, sak, qarqar, sode və uti adları ilə məlum olan tayfalar haqqında məlumat verilir. Bu ərazilərə ermənilər köçürülənədək hay mənşəli heç bir toponimə rast gəlinməməsi də bunun bariz ifadəsidir. Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır [11, s. 12]. Qarabağ mədəniyyəti vahid mərkəz olub, Azərbaycan xalqına məxsusdur. "Arsax" Türk mənşəlidir və "Dünyanın qərb hissəsi" deməkdir [16, s. 16].

XIX yüzillikdən başlayaraq Qarabağın Dağlıq hissəsində aparılmış tarixi, arxeoloji, etnoqrafik və toponimik tədqiqatlar sübut etmişdir ki, hazırda burada yaşayan ermənilər mənşə etibarilə 3 qola ayrılır. Onlardan birincisi farsdilli ermənilərdir. Tərtərçay vadisindəki Marağa, Margüşəvan, Aşağı və Yuxarı çaylı kəndləri, İsfahancıq, Talış və bir sıra kəndlər fars dillidirlər. Onları mənşə etibarilə tatlaşdıran tədqiqatçılar da vardır. Həm də farsdilli ermənilər təkcə Qarabağa deyil, eləcə də Qərbi Azərbaycana və Şirvana da köçürülmüşlər.

İkinci qrup ermənilər Türkiyədən gələnlərdir. Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin bir hissəsini, daha doğrusu onların ikinci qolunu Turkiyədən köçürülən ermənilər təşkil edir. Onların əksəriyyəti Gürcüstana, bir qismi isə Qarabağa köçürüldü. Qarabağa köçürülən ermənilər özlərini daha pis aparır, nəinki yerli müsəlman əhaliyə, həmçinin yerli alban əhalisinə və İran ermənilərinə qarşı da "sıxışdırma" siyasəti yürüdürdülər. Qarabağın bir çox yerlərində Bizans tipli kilsələrin inşa edilməsi də məhz Türkiyə ermənilərinin burada məskunlaşması ilə əlaqədardır.

Üçüncü qrup ermənilər xristianlaşmış albanlardır. Dağlıq Qarabağın xristian əhalisi öz keçmişini unutmamış, XVIII yüzilin birinci yarısında rus çarı I Pyotra yazdıqları məktubunda özləri göstərirlər ki, biz erməni deyilik, bizim əcdadımız albanlardır.

## 2. Erməni mənbələrində hayların mənşəyinə dair.

İctimai-siyasi xadim, iqtisadçı, jurnalist B.İşxanyan yazır: [8] "Qarabağda yaşayan ermənilərin bir hissəsi qədim albanların nəsli-yerli əhalidir, o biri hissəsi isə Türkiyə və İraqdan olan qaçqınlardır, onlar üçün Azərbaycan torpağı təqib və zülmlərdən sığınacaq yeri olmuşdur" .

Beləliklə, Dağlıq Qarabağın indi "erməni" adlanan əhalisinin ulu əcdadları haqqında tarixi həqiqətlər belədir: onların ulu əcdadları məhz xristian albanlarıdır. Yəni, Qarabağda yaşayan və özünü "erməni" adlandıranlar əslində xristian albanların törəmələridir. Bu səbəbdən demək olar ki, bütün sovet dövrü ərzində o cümlədən, günümüzdə də Qarabağda yaşayan ermənilərlə indiki Ermənistan ərazisində yaşayan ermənilər arasında ziddiyyət, özlərini fərqli soydan hissetmə və bir-birini qəbul etməməyə rast gəlmək mümkündür. Faktlar bir daha sübut edir ki, vətəni, paytaxtı, mədəni irsi, siyasi sistemi olmayan erməni ünsürləri tarixdə yadda qalan şəxsiyyət yetirə bilməmişdir.

1892-ci ildə Xankəndidə anadan olan keçmiş əsgər Ovanes Apresyan xatirələrində bəhs edir ki, "Bu yerlərin (Qarabağ nəzərdə tutulur-müəllifdən) sakinləri türklər və ermənilərdir. Əslində bu torpaq türklərə aiddir və ermənilər bura gəlmədirlər. Biz-ermənilər say

baxımından bizdən üstün olan müsəlman türklər arasında xristian azlıq kimi yaşayırdıq" [4, s.13].

Qarabağın tarixində əsaslı dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin aradan qaldırılması ilə baş vermişdir. Ərəblərin Azərbaycanı və Arranı istila edərkən bu ərazidə türk tayfalarına rast gəlmələri haqqında bir çox ərəb müəlliflərinin əsərlərində qeyd edilmişdir. Türk tayfalarının alban dövlətinin idarə olunmasında, onun mədəniyyətinin və memarlığının inkişafındakı rolu danılmazdır. Ona görə də bir çox tarixçilər alban memarlığından danışarkən "Alban-türk memarlığı" ifadəsini işlədirlər ki, bu da o dövrlə tam qanunauyğunluq təşkil edir. 1126-cı ildə farsca tərtib edilmiş, imzasız bir əsərdə qeyd olunur ki, Əməvi xəlifəsi Müaviyə (661-680) bir dəfə qədim tarixə bələd olan yəmənli Abid ibn Şariyəyə belə sual verir: "Türklər və Azərbaycan nə deməkdir?" Abid cavabında deyir: "Azərbaycan qədimdən türklərin yaşadığı ölkədir" [2, s. 203].

IV əsrin əvvəllərində Bizans imperiyasının təsiri altında Zaqafqaziyada xristianlığın yayılmağa başladığı dövrdə xristian dini Qafqaz Albaniyasının rəsmi dövlət dini olur. Qarabağ 551-ci ildən alban katalikosunun daimi yaşayış yerinə çevrilmişdir [12, s. 40]. İslam dinini burada əhalinin heç də hamısının qəbul etməməsini müəyyən qədər bunula izah etmək olar. Xüsusilə, Qarabağın dağlıq hissəsində yaşayan tayfalar təqib və təzyiqlərə baxmayaraq xristian dininə sadiq qalmışdılar. Azərbaycanın tarixi Albaniya torpaqlarının varisi olduğunu nəzərə alsaq Qarabağdakı bir sıra alban xristian abidələri birmənalı olaraq Azərbaycan xalqının milli mədəniyyətinə aiddir.

Fransız ütopisti özünün "Dörd hərakat və ümumi talelər nəzəriyyəsi" (1808) əsərində ermənilərə müraciət edərək yazırdı: "...despotizmi, alçalmağı və xəyanəti adət edən erməniləri öz məqsədlərinə çatmaq üçün heç nə dayandıra bilməz; dinin özü belə onların əlində mənfəət və aldatmağa xidmət edən yalnızca bir vasitədir..." [3]. Məlumdur ki, ermənilər öz mentalitetlərinə uyğun saydıqları, dini cəhətdən yaxın gördükləri xristianlıq dövrü memarlıq abidələrini erməniləşdirərək bu tipli abidələrə daha çox sahib çıxmaq istəmişlər. Lakin tədqiqatlar göstərir ki, bu abidələr nə erməni dininə, nə də erməni mədəniyyətinə və mənşəyinə uyğun gəlmir. Şərq xristianlığına məxsus memarlığın bütün növlərinin inkişaf etdiyi Albaniyada ən mürəkkəb quruluşlu, üslubu yalnız Alban dövrünə aid olan monastırlar da ermənilər tərəfindən mənimsənilmiş, bu memarlıq abidələri üzərindəki bəzəklərə, sujetlərə dəyişikliklər edilmişdir. Hətta Laçın rayonunun Kosalar kəndindəki "Ağoğlan" sovməsi[1], Şuşa şəhərindəki kilsənin ümumi görünüşü tamamilə dəyişdirilmişdir. Əslində ermənilər min illik tarixə malik Alban dövlətinin varlığının üstündən xətt çəkib qədim Alban mədəniyyətinə sahib çıxmaqla özlərinin necə təcavüzkar bir millət olduqlarını sübut edirlər.

Simvol və rəmzlər arasında isə ermənilər tərəfindən daha çox təcavüzə məruz qalan xaç daşlardır. Əslində qədim albanlar və ermənilər xristian dininə mənsub olsalar da xristianlığın simvolu olan "xaç" işarəsinin hər iki etnosda fərqli olduğunu görmək mümkündür. Alban xaç daşlarının obrazları bir çox əsrlər ərzində əvvəlcə dini simvolika obrazlarında üzvi şəkildə çarpazlaşmış iki, sonra üç dinin təsiri altında təşəkkül etmişdi. Xaç daşlarının bütün özümlülüyü, orijinallığı və erməni xaçkarlarından əsaslı fərqi də bundan irəli gəlir. Alban qəbir, xatirə və sərhəd stellalarının, xaç daşlarının yaranmasında, göstərildiyi kimi, üzərində dünyanın quruluşu haqqında təsəvvürlər və bütpərəstlik simvolikasının təsvirləri qalmış xristianlıqdan əvvəlki stellalar müəyyən rol oynamışdır. Əvvəllər günəş, məhsuldarlıq, həyat ağacı simvolu olan xaç onların yeni xristian dininə aid olduğunu təsdiq edir.

Mütəxəssislər Cənubi Qafqaz ərazisinə səpələnmiş alban xaç daşlarını əsasən dörd qrupda cəmləşdirirlər ki, onlar da Xaçın, Artsak, Cuğa və Yenivəng xaç daşlarıdır. Artsak xaç daşları tarixi Artsak vilayəti ərazisində yerləşən daşlardır. Onlardan ən məşhuru və elmi

[1] İbadətxana, ibadətgah, hücrə.

ədəbiyyatda böyük marağa səbəb olanı (1633-cü il) olduqca maraqlı və orijinal olan, xaçvari şəkilli və Qafqaz Albaniyasının hər yerində qəbul olunmuş kanonlar içərisində olan Artsak xaçdaşıdır. Lakin erməniləşdirmə siyasətinin nəticəsi olaraq haqqında danışılan xaçdaşı hələ SSRİ dövründə Eçmiədzinə aparılmış və bu gün də dünyaya erməni təfəkkürünün bədii nümunəsi kimi təqdim edilməkdədir.

Beləliklə, Albanlara məxsus üzərində xristianlığa qədər mövcud olmuş dini ayinlərin simvolikası əks olunmuş xristian və müsəlman qəbirləri, yazılı abidə daşları, bütün özünəməxsus orijinal və köklü fərqi olan xaçdaş, başdaş və nişandaş erməni xaçından fərqlənir. Çünki erməni-qriqoryan xaçları hazırlanarkən onların təsvirlərində dekorativ sənət nümunələrindən, ornamentlərdən istifadə edilməmişdir. Erməni dini xaç təsvirləri sadə formada olduqlarından özünün bədii üslub və xarakterinə görə heç bir məna və əhəmiyyət kəsb etmir.

VII yüzilliyin ortalarına yaxın albanlara aid 30-dan artıq monastır olmuşdur. Dövrümüzədək gəlib çatmış, qədim alban-türk memarlığının şah əsərləri olan Qarabağ ərazisindəki XIII əsrə aid Kəlbəcərdə yerləşən I Xotavəng alban-türk məbədi, Xocavənd rayonun Sos kəndində IV əsrdə inşa edilən Amaras alban-türk məbədi, müqəddəs Yelisey məbədi kompleksinə (V-XIV əsrlər) də işğal dövründə ermənilər tərəfindən böyük zərər vurulmuş, abidələrin erməniləşdirilməsinə cəhd olunmuşdur.

Bu günə kimi Qarabağda mövcudluğunu qoruyub saxlayan bir çox tarixi abidələr, o cümlədən Qansazar monastır kompleksi ermənilərin öz knyazları kimi göstərməyə cəhd etdikləri, lakin Alban Mehranilər sülaləsinin nümayəndələrindən, xəlifələrindən biri olan Həsən Cəlalın göstərişi ilə inşa olunmuşdur. Həsən Cəlalın nəsli, 1261-ci ildə isə özü burada dəfn olunmuşdur. Həsən Cəlal Dövlə bu kilsəni Albaniyanın "taxt-tac kilsəsi" adlandırırdı. Kilsədə olan daş kitabələr üzərində bu kilsənin albanlar üçün inşa edildiyi yazılmışdır [1, s. 43].

Qansazar və ya Gəncəsər monastrı 1511-ci ildən 1836-cı iladək Alban xristianlarının iqamətgahı olmuşdur. Hal-hazırda Qarabağın dağlıq Ağdərə rayonunun Vəngi kəndində yerləşən Qansazar kilsə kompleksində 84 daşüstü yazı mövcuddur. Bu memarlıq abidəsi orta əsr alban memarlıq məktəbinin nadir incisi sayılır. Erməni memarlığında isə Qansazar alban memarlığının bənzəri olan hər hansı abidə yoxdur. Uzun illər Qafqaz Albaniyasının memarlıq abidələrini tədqiq etmiş albanşunas alimlərin fikrincə, bu abidələr bir çox xarakterik xüsusiyyətlərinə və memarlıq planlaşdırma üslublarına görə erməni dini memarlıq abidələrindən tamamilə fərqlənirlər.

Erməni kilsəsi əvvəllər də alban kilsəsini özündən asılı vəziyyətə salmaq istəmişdi, lakin Alban Katolikosluğu buna qəti etirazını bildirmişdi [9, s. 90]. Rusiyanın vasitəsi ilə 1836-cı ildə Azərbaycanda Albaniya dövlətinin yadigarı olan müstəqil Alban kilsəsinin ləğv olunaraq erməni Qriqoryan kilsəsinin tabeçiliyinə verilməsi xristianlıq dövrü alban abidələrinin erməniləşdirilməsinə xidmət edən səbəblərindən biri idi. Çünki orta əsrlərdən bəri erməni kilsəsi tarixən rəqib kimi gördüyü Alban kilsəsinin qriqoryanlaşdırılmasına çalışsa da buna nəhayət ki, Rusiyanın əli ilə nail ola bildi. Ərəb işğallarınadək Qarabağın tarixi əhalisi etnik baxımdan eyni kökdən, yəni Azərbaycan-Albaniya kökündən olduğu halda, bu dövrdə Ərəb xilafətinin Azərbaycanla bağlı yeritdiyi faciəli siyasət nəticəsində vilayətin dağlıq hissəsində ermənilərin dini üstünlüyünün təmin edilməsi zaman keçdikcə etnik sahədə də özünü göstərdi: Albaniyanın tarixi Arsax bölgəsi əhalisinin əvvəlcə qriqorianlaşdırılmasına, bunun ardınca da erməniləşdirilməsinə başlandı. Alban kilsəsini ləğv edən Əməvilər

sülaləsindən olan xəlifə Əbdülməlik ibn Mərvan[2] (645/646-705) xristian-albanları erməni kilsəsinə və erməni katalikosuna tabe etdi.

Öz xalqını "haylar" adlandıran səlnaməçi Moisey Horenasi yazırdı: "Biz haylar azsaylı, zəif və bir çox hallarda başqalarının ağalığı altında yaşayan xalqıq" [7]. Bir çox erməni tarixçiləri tarixi faktları inkar edərək hay tarixşünaslığının patriarxı olan Moisey Horenasinin bizim eranın V əsrində yaşayıb yaratdığını iddia edirlər. Bu zaman sual meydana çıxır: bəs V yüzillik müəllifi 704-cü ildə baş verən hadisələr necə yaza bilərdi? Lakin fakt fakt olaraq qalır və tarixi faktları heç nə ört basdır edə bilməz. M. Horenasi qeyd edirdi: "Erməni kilsəsi 704-cü ildə ərəb xilafətinin köməyi ilə alban kilsəsini özünə tabe edən zaman alban tarixi haqqında alban dilində yazılan hər şeyi məhv etdi". Bu dövrdən qədim alban mədəniyyətinin erməni kilsəsi tərəfindən sistemli məhv edilməsi prosesi başlandı. Bunu erməni müəllif Ter-Qriqoryan da təsdiq edir. O yazır ki, Moisey Kaqanvatsinin (Alban tarixçisi) əsəri bizə tam şəkildə gəlib çata bilməyib. Bu əsərin erməni dilinə tərcüməsi ilə məşğul olan erməni rahibləri erməni katalikoslarının göstərişinə əsasən həddindən artıq təhriflərə yol vermişdilər [15, s. 42].

Təbiidir ki, qriqorianlaşdırmaya nisbətən erməniləşdirmə uzun proses olmalı idi və həqiqətən də bu belə oldu. Ona görə də Z.Bünyadov S.T.Yeremyanın "VII əsrdən (qəti olaraq VIII əsrin əvvəllərindən) Alban kilsəsinə erməni kilsəsinin bir hissəsi kimi baxılırdı və bu zaman Arran vilayətindən Sünik, Arsax, Uti və başqalarının erməniləşdirilməsi"-ni iddia edən fikrinə etiraz edərək yazır: "İki müxtəlif anlayış olan erməniləşdirmə və qriqorianlaşdırma anlayışlarının qarışdırılması diqqəti cəlb edir. Bu yerdə erməni kilsəsinin köməyi ilə Arran əhalisinin yalnız qriqorianlaşdırılmasından danışıla bilər. S.T.Yeremyanın bu barədəki nöqteyi-nəzəri doğru deyildir. Çünki, Arran vilayətində Sünik vilayəti və Arsaxın xeyli hissəsi XII əsrin əvvəllərinə yaxın erməniləşdirilmişdir. Bu fikir bir daha təsdiq edir ki, Qarabağın bu hissəsində yaşayan əhali əvvəldən erməni olmamış, əksinə yerli Azərbaycan-alban tayfaları olmuşlar və sonradan erməniləşdirilmişlər, daha doğrusu əvvəlcə qriqorianlaşdırılmış, sonra isə erməniləşdirilmişlər.

Əslində «Tarixdə iki böyük hadisə – alban xristian kilsəsinin erməni kilsəsinə tabe edilməsi və albanların böyük əksəriyyətinin İslam dinini qəbul etməsi vahid alban xalqının taleyini başqa cür həll etdi: - albanlar dini mənsubiyyətə görə iki düşmən hissəyə parçalandı.

Alban kilsəsinin ləğvindən sonra onun mülklərini və tarixi irsini özününküləşdirən erməni kilsəsi onlar üzərində hüququnu təsdiq etmək üçün dini-ideoloji və siyasi mübarizəsini genişləndirdi, yeni dövrün əsas istiqaməti İslama və Azərbaycan xalqına qarşı ərazi iddialarına və etnik təmizlənməsinə yönəldi [14].

## *Nəticə*

Tədqiqatlar qədim alban mədəniyyətinin Qarabağın maddi və mənəvi mədəniyyətinin tərkib hissəsi olduğunu aydın şəkildə göstərir və bu barədə əks fikirlərin əsassız olduğunu sübut etməyə əsas verir. Dünya birliyi unutmamalıdır ki, talan olunmuş və məhv edilmiş mədəni-tarixi abidələr təkcə Qarabağın-Azərbaycanın yox, həm də dünya sivilizasiyasının çox dəyərli mədəniyyət nümunələridir. Ermənistan dağıtdığı bütün tarixi abidələrə, mədəniyyət müəssisələrinə görə məsuliyyət daşımalı və təzminat ödəməlidir [13].

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. VII cilddə. III cild. O.Əfəndiyevin redaktorluğu ilə. Bakı, Elm, 2007.

[2] Əməvilər sülaləsindən olan xəlifə. Onun dövründə xilafətin birliyi bərpa edildi, İraq və Suriyada vergi kadastrları ərəb dilinə tərcümə edildi, pul islahatı aparıldı, maliyyə idarəsinin başında ərəblər durmağa başladı.

2. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007. 424 səh.
3. Фурье Ш. "Теория четырех движений и всеобщих судеб. Проспект и анонс открытия" Том I. Под редакцией и с вступительной статьей А.Дворцова и переводчик Е. Успенская. "Книгократия", 2017.
4. Hartill L.R. "Men are like that". Avrasya İncelemeleri Merkezi (AVİM). Terazi yayıncılık, 2023. (Originally printed by the Bobbs-Merrill Company in 1928).
5. Həmidov Ə. 2009. İblis xislətli erməni./Ə.M.Həmidov, N.Əhmədov; red. S.A.Nəzərli – Bakı: Elm və Təhsil, 496 s.
6. Xəlilov X.D. Qarabağın elat dünyası. 119 s. B., Azərnəşr, 1992.
7. Хоренский М. «История Армении» М.,1893, с. 4.
8. Ишханянъ Б. Народности Кавказа. Составь Населенія, Профессіональная Группировка И Общественное Разслоеніе Кавказскихъ Народностей. Складь Изданія Книжный Магазинъ Вывш. М. В. Попова. Петроградь, Невскій Просп., 66. Петроградъ, 1916.
9. Kalankatuklu M.Alban tarixi. Qoş M. Alban salnaməsi. Bakı: Avrasiya press, 2006. 296 s.
10. Qarabağ: suallar və faktlar. Bakı, 2005-ci il. 156 s.
11. Petruşevski İ.P. Xristianlığa qədər Dağlıq Qarabağ kəndlisinin etiqadları. Azərbaycan dilində. 38 s. Bakı, 1930-cu il.
12. Piriyev V. Azərbaycan tarixi – siyasi coğrafiyası. 152 s. B., "Araz", 2002.
13. Rəsulova N. "Bəşər sivilizasiyasının erməni vandalizminə məruz qalmış tarix və mədəniyyət abidələri". "İslam mədəniyyətini zənginləşdirən şəhər: Şuşa" Beynəlxalq elmi konfransı. 25 aprel 2024, Bakı.
14. Şükürov Ş. Azərbaycanda Alban kilsəsinin ləğvindən 180 il ötür (//https://apa.az/az/ xeber/sosial xeberler/xeber_azerbaycanda_alban_kilsesinin_legvinden-417927.)
15. Тер-Григорян. Борьба Арцаха с арабскими захватчиками в IX веке. Баку, 1942, с.42.
16. Yüzbaşov R. Dağlıq Qarabağ Muxtar Vilayətinin toponimikası. Azərbaycan SSR EA xəbərləri. Yer haqqında elmlər seriyası. 1969. №2, s. 86-92.

УДК 94 (479.24)

*И.А.Асадзаде*
*Гянджинское отделение НАНА*

## ПОПЫТКА АРМЕНИЗАЦИИ ДРЕВНЕАЛБАНСКОЙ КУЛЬТУРЫ КАРАБАХА
### *РЕЗЮМЕ*

*Ключевые слова:* албано-турецкая культура, Карабах, армянская жестокость, арменизация, вандализм

В статье говорится о культурном наследии древнего Албанского государства, занимающего уникальное место среди кавказских культур, и попытках арменизации этой культуры, всегда интересной своим сложным колоритом и неповторимым стилем, принадлежащей Карабахскому региону века. Армяне пытались искусственно арменизировать коренных албанцев, они хотели претендовать на большую собственность на архитектурные памятники христианской эпохи, которые они считают религиозно близкими и совместимыми с их менталитетом. Как сказал в своих мемуарах бывший солдат Ованес Апресян: «На самом деле эта земля (Карабах) принадлежит

туркам, и армяне сюда не приходят. Мы, армяне, жили как христианское меньшинство среди турок-мусульман, которые превосходили нас численностью». Большой ущерб был нанесен армянами во время оккупации I Хотавенга I, представляющего собой сохранившиеся до нашего времени шедевры древней албано-турецкой архитектуры, расположенные в Кельбаджаре в 13 веке на территории Карабаха, Амарас, построенный в IV век в селе Сос Ходжавендского района и святом Елисейском храмовом комплексе (V-XIV вв.) к памятникам применен армянский вандализм.

UDC 94 (479.24)

*I.A.Asadzadeh*
*Ganja Branch ANAS*

## ATTEMPT TO ARMENIZATION OF THE ANCIENT ALBANIAN CULTURE OF KARABAKH

*SUMMARY*

*Key words:* Albanian-Turkish culture, Karabakh, Armenian brutality, Armenianization, vandalism

The article talks about the cultural heritage of the ancient Albanian state, which occupies a unique place among the Caucasian cultures, and the attempts to armenize this culture, which is always interesting with its complex color and unique style, belonging to the Karabakh region, over the centuries. The Armenians tried to artificially armenize the aboriginal Albanians, they wanted to claim more ownership of the Christian era architectural monuments, which they consider religiously close and compatible with their mentality. As former soldier Ovanes Apresyan said in his memoirs: "Actually, this land (Karabakh) belongs to Turks, and Armenians do not come here. We Armenians lived as a Christian minority among the Muslim Turks who outnumbered us." Great damage was done by the Armenians during the occupation to the I Khotaveng I, which are the masterpieces of ancient Albanian-Turkish architecture that have survived to our time, located in Kalbajar in the 13th century in the Karabakh territory, Amaras, built in the 4th century in the village of Sos, Khojavend region, and the holy Elysee temple complex (5th-14th centuries) Armenian vandalism was applied to the monuments.

***Daxil oldu: 16.09.2024-cü il***